History of Science
Vol 7, issue 1, serial 24, 2026, pp.276-284

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# THEROTICAL FOUNDATIONS, IMPLEMENTATION AND PRACTICAL MODEL OF TASK-BASED COMMUNICATIVE MILITARY LANGUAGE LEARNING STRATEGY

**Zamina Novruzova**[1]

**UDC:** 37.091.3:81′243:355.23
**LBC:** 74.48:81.2−9
**HoS:** 147
**doi:** 10.33864/2790-0037.2026.v7.i1.276-284

**Keywords:**

Language learning strategies,
Cognitive strategies,
Metacognitive strategies,
Motivation,
Task–based,
Communicativ approach,
Technological support

**Subject area:**

Humanitarian and Social Sciences

**Research field:**

Military Pedagogy

## ABSTRACT

In today's globalized world, foreign language acquisition is essential for both personal and professional success. This article examines language learning strategies from theoretical and practical perspectives, focusing on recent methodologies and pedagogical approaches. The aim is to identify how various learning strategies (cognitive, metacognitive, and social) impact learners' language skills — listening, speaking, reading, and writing. The research is grounded in a literature review and recent empirical studies. Findings suggest that the purposeful use of individualized and collaborative strategies enhances language proficiency, increases learner motivation, and fosters self-regulation. This article also highlights the importance of new strategy selection in optimizing language learning outcomes in military educational institutions. At the same time, the article also analizes the implementation of task based communicative approach in teaching English in military educational institutions. The study aims to examine this strategy on the development of cadets` professional communicative skills. The findings indicate that task based activities enhance language use in authentic military contexts. Practical recommendations for integrating this strategy into the teaching process are provided.

[1] Doctoral Student,
Military Scientific Research Institute of National Defence University, Lecturer, Military Institute named after Heydar Aliyev; Baku, Azerbaijan
E-mail: zeminenovruzova593@gmail.com
https://orcid.org/0009-0004-0062-2413
**To cite this article:** Novruzova, Z. [2026]. Therotical Foundations, Implementation and Practical model of Task-Based Communicative Military Language Learning Strategy. *History of Science journal*, *7*(1), pp.276-284.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.276-284

***Article history:***
*Received: 21.01.2026*
*Revised: 23.02.2026*
*Accepted: 01.03.2026*
*Published: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# TAPŞIRIQ ƏSASLI KOMMUNİKATİV HƏRBİ DİLÖYRƏNMƏ STRATEGİYASININ NƏZƏRİ ƏSASLARI, TƏTBİQİ VƏ PRAKTİK MODELİ

**Zəminə Novruzova**[1]

**UOT:** 37.091.3:81′243:355.23
**KBT:** 74.48:81.2−9
**HoS:** 147
**doi:** 10.33864/2790-0037.2026.v7.i1.276-284

**Açar sözlər:**

Dil öyrənmə strategiyaları,
Kognitiv strategiyalar,
Metakognitiv strategiyalar,
Motivasiya,
Tapşırıq əsaslı,
Kommunikativ yanaşma,
Texnoloji dəstək

**Sahə:**

İctimai və Humanitar elmlər

**Tədqiqat sahəsi:**

Hərbi Pedaqogika

## ANNOTASİYA

Müasir qloballaşan dünyada xarici dillərin öyrənilməsi həm fərdi, həm də peşəkar uğur üçün vacibdir. Bu məqalədə dil öyrənmə strategiyaları nəzəri və praktik aspektlərdən təhlil edilir, xüsusilə son illərdə metodologiyalar və təhsil yanaşmaları araşdırılır. Məqsəd müxtəlif öyrənmə strategiyalarının (kognitiv, metakognitiv və sosial) dil bacarıqlarına (dinləmə, danışıq, oxu və yazı) — təsirini müəyyən etməkdir. Tədqiqat ədəbiyyat icmalı və son illərin araşdırmalarının nəticələrinə əsaslanır. Bu tədqiqatlar göstərir ki, fərdi və kollektiv strategiyaların məqsədli tətbiqi dil qabiliyyətlərinin yüksəlməsinə, motivasiyanın artmasına və özünüidarəetmə bacarıqlarının inkişafına səbəb olur. Məqalə həm də hərbi təhsil müəssisələrində dil öyrənmə prosesinin səmərəliliyini artırmaq üçün yeni strategiya seçiminin əhəmiyyətini vurğulayır. Bununla bərabər, məqalədə hərbi təhsil müəssisələrində ingilis dilinin öyrənilməsində tapşırıq əsaslı kommunikativ yanaşmanın tətbiqi təhlil olunur. Tədqiqatın məqsədi bu strategiyanın kursantların peşəyönümlü kommunikativ bacarıqlarının inkişafına təsirini müəyyən etməkdir. Nəticələr göstərir ki, tapşırıq əsaslı fəaliyyətlər real hərbi situasiyalarda dil ifadəsini gücləndirir. Məqalədə strategiyanın tədris prosesinə inteqrasiyası üçün praktik tövsiyələr təqdim olunur.

[1] Dissertant,
Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu, müəllim, Heydər Əliyev adına Hərbi İnstitut; Bakı, Azərbaycan
E-mail: zeminenovruzova593@gmail.com
https://orcid.org/0009-0004-0062-2413

**Məqaləyə istinad:** Novruzova, Z. [2026]. Tapşırıq Əsaslı Kommunikativ Hərbi Dilöyrənmə Strategiyasının Nəzəri Əsasları, Tətbiqi və Praktik Modeli. *History of Science jurnalı*, *7*(1), səh.276-284.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.276-284

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 21.01.2026*
*Yenidən baxılıb: 23.02.2026*
*Təsdiqlənib: 01.03.2026*
*Dərc olunub: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ, ПРИМЕНЕНИЕ И ПРАКТИЧЕСКАЯ МОДЕЛЬ КОММУНИКАТИВНОЙ ВОЕННОЙ СТРАТЕГИИ ИЗУЧЕНИЯ ЯЗЫКА, ОСНОВАННОЙ НА ЗАДАНИЯХ

**Замина Новрузова**[1]

**УДК:** 37.091.3:81′243:355.23
**ББК:** 74.48:81.2−9
**HoS:** 147
**doi:** 10.33864/2790-0037.2026.v7.i1.276-284

**Ключевые слова:**

Стратегии изучения языка, Когнитивные стратегии, Метакогнитивные стратегии, Мотивация, Основанный на заданиях, Коммуникативный подход, Технологическая поддержка

**Область исследования:**

Гуманитарные и социальные науки

**Научная область:**

Военная педагогика

## АННОТАЦИЯ

В современном глобализирующемся мире изучение иностранных языков является важным как для личного, так и для профессионального успеха. В данной статье стратегии изучения языка анализируются с теоретической и практической точек зрения, в частности рассматриваются методологии и образовательные подходы последних лет. Целью является определение влияния различных стратегий обучения (когнитивных, метакогнитивных и социальных) на языковые навыки (аудирование, говорение, чтение и письмо). Исследование основано на обзоре литературы и результатах исследований последних лет. Эти исследования показывают, что целенаправленное применение индивидуальных и коллективных стратегий приводит к повышению языковых способностей, росту мотивации и развитию навыков самоуправления. В статье также подчеркивается значение выбора новой стратегии для повышения эффективности процесса изучения языка в военных образовательных учреждениях. Наряду с этим в статье анализируется применение коммуникативного подхода, основанного на заданиях, в обучении английскому языку в военных образовательных учреждениях. Цель исследования заключается в определении влияния данной стратегии на развитие профессионально-ориентированных коммуникативных навыков курсантов. Результаты показывают, что деятельность, основанная на заданиях, усиливает языковое выражение в реальных военных ситуациях. В статье представлены практические рекомендации по интеграции данной стратегии в учебный процесс.

[1] Диссертант,
Военно-научно-исследовательский институт Национального университета обороны, преподаватель, Военный институт имени Гейдара Алиева; Баку, Азербайджан
E-mail: zeminenovruzova593@gmail.com
https://orcid.org/0009-0004-0062-2413
**Цитировать статью:** Новрузова, З. [2026]. Теоретические основы, применение и практическая модель коммуникативной военной стратегии изучения языка, основанной на заданиях. *Журнал History of Science, 7*(1), с.276-284.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i1.276-284

***История статьи:***
*Поступила: 21.01.2026*
*Переработана: 23.02.2026*
*Принята: 01.03.2026*
*Опубликована: 15.03.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Dil öyrənmə strategiyaları tədqiqatçıların uzun müddətdir diqqət mərkəzində saxladığı sahədir və son illərdə bu strategiyaların motivasiya və öyrənmə nəticələri ilə əlaqəsi daha çox araşdırılmışdır. Dil öyrənmə strategiyaları adətən kognitiv (məzmuna yönəlik), metakognitiv (özünü-nəzarət) və sosial (əlaqə əsasında) bölmələrə ayrılır, bu da dil öyrənənlərin biliklərinin daha effektiv inkişafına şərait yaradır. Son tədqiqatlar göstərir ki, tələbələr arasında metakognitiv strategiyaların istifadəsi motivasiya ilə sıx bağlıdır və bu strategiyalar istifadəçilərin öz öyrənmə proseslərini planlama, izləmə və qiymətləndirmə qabiliyyətlərini gücləndirir [Shurovi, 2025, s.252-277]. Başqa sistematik ədəbiyyat icmalına əsasən, metakognitiv strategiyalar tələbələr tərəfindən ən çox seçilən strategiya növüdür, digərləri isə yaddaş və affektiv strategiyalardır. Metakognitiv strategiyaların öyrənmə uğuruna təsiri yalnız motivasiya ilə məhdudlaşmır — son araşdırmalar göstərir ki, metakognitiv bilik və özünü-nəzarət bacarıqları yüksəldikcə tələbələrin akademik performansı da müsbət şəkildə dəyişir [Alolaywi, 2025, s. 865-879]. Son beş ildə aparılan ədəbiyyat icmalları göstərir ki, dil öyrənmə strategiyalarının təsir mexanizmlərini anlamada motivasiya, metakognitiv özünü nəzarət və sosial qarşılıqlı əlaqələr əsas rol oynayır və bu sahə gələcək tədqiqatlar üçün geniş imkanlar təqdim edir.

## 2.Tapşırıq əsaslı kommunikativ hərbi dil öyrənmə strategiyasının nəzəri əsasları

Hərbi təhsil müəssisələrində ingilis dilinin öyrənmə prosesinin effektivliyini artırmaq üçün mühüm rol oynaya biləcək tapşırıq əsaslı kommunikativ dil öyrənmə strategiyası (Task-Based Communicative MilitaryLanguage Learning Strategy — TBCMLLS) tələbələrin praktik danışıq, yazı, dinləmə və oxu bacarıqlarını hərbi kontekstdə inkişaf etdirməyə yönəlmişdir [Alolaywi, 2025, s.868-870].

Tapşırıq əsaslı kommunikativ hərbi dil öyrənmə strategiyasının nəzəri əsasları kommunikativ yanaşma və tapşırıq əsaslı öyrənmə (Task-BasedLanguageLearning, TBL) prinsiplərinə söykənir. Bu yanaşma kursantları yalnız dil qaydalarını öyrənməyə deyil, real hərbi situasiyalarda effektiv ünsiyyət qurmağa yönəldir [Shurovi 2025, s.254-257]. Beləliklə, kursantlar praktiki tapşırıqlar vasitəsilə öyrənməyi və özünüidarəetmə bacarıqlarını inkişaf etdirir, eyni zamanda peşə yönümlü motivasiyasını artırırlar. Son araşdırmalar göstərir ki, metakognitiv və sosial strategiyaların tapşırıq əsaslı kommunikativ dil öyrənmə strategiyası ilə birləşdirilməsi hərbi kursantların dil performansını yüksəldir, tapşırıqları daha məqsədli yerinə yetirməyə və komandada ünsiyyət qurmağa imkan yaradır. Nəticədə, tapşırıq əsaslı kommunikativ yanaşma hərbi təlimdə dil öyrənmənin praktik tətbiqini və strateji bacarıqların formalaşmasını təmin edir.

## 3.Tapşırıq əsaslı kommunikativ hərbi dil öyrənmə strategiyasının tətbiqi və praktik modeli

Tapşırıq əsaslı kommunikativ hərbi dil öyrənmə strategiyası (TBC-MLLS) kursantların hərbi mühitdə dil bacarıqlarını sistemli və məqsədli şəkildə inkişaf etdirməyə xidmət edir. Bu yanaşma praktik fəaliyyətlərə əsaslanan öyrənmə prinsiplərinə söykənir və yalnız nəzəri biliklərin deyil, həm də real ünsiyyət bacarıqlarının formalaşmasını hədəfləyir. Hərbi kontekstdə dil öyrənmə, xüsusilə komandada tapşırıqların yerinə yetirilməsi, əməliyyatların koordinasiyası və təhlükəsizlik prosedurlarının icrası üçün həyati əhəmiyyət daşıyır.

Tapşırıq əsaslı kommunikativ dil öyrənmə strategiyası kursantların kognitiv, metakognitiv və sosial strategiyalarını inteqrasiya etməklə onların öyrənmə prosesini strukturlaşdırır. Kognitiv strategiyalar kursantlara dil biliklərini praktik tapşırıqlarda tətbiq etməyə kömək edir; məsələn, hərbi əməliyyat planının ingilis dilində təqdimatı və ya patrul hesabatının hazırlanması və s.. Metakognitiv strategiyalar kursantların özünü qiymətləndirmə, öyrənmə planlaması və tapşırıq prosesinin izlənməsi bacarıqlarını gücləndirir. Sosial strategiyalar isə komandada əməkdaşlıq və ünsiyyət bacarıqlarını inkişaf

etdirir; kursantlar həmyaşıdları ilə tapşırığı həll edir, dialoq aparır və komandada dil funksiyalarını praktikada tətbiq edirlər.

Tədqiqatlar göstərir ki, tapşırıq əsaslı yanaşma ilə metakognitiv strategiyaların birləşdirilməsi kursantların motivasiyasını artırmağa və öyrənmə nəticələrini yaxşılaşdırmağa müsbət təsir göstərir. Bu yanaşma həmçinin real hərbi tapşırıqlarla dil öyrənməyi təmin edərək kursantların bacarıqlarının təlim proqramının tələblərinə uyğun olmasını təmin edir. Ən son araşdırmalar göstərir ki, tapşırıq əsaslı kommunikativ dil öyrənmə strategiyası tətbiqi kursantların dinləmə və danışıq bacarıqlarını 25–30% artırır və yazılı hesabatların hazırlanmasını daha səmərəli edir.

Praktik model kursantların hərbi tapşırıq kontekstində dil bacarıqlarını aşağıdakı mərhələlərdə inkişaf etdirməyi təklif edir:

- *Tapşırığın təqdimatı:* Kursantlara hərbi senarilər təqdim olunur (patrul hesabatı, əməliyyat planı, komanda əmri).
- *Strategiyaların seçimi:* Kursantlar tapşırığı yerinə yetirmək üçün kognitiv, metakognitiv və sosial strategiyalardan istifadə planı hazırlayır.
- *Fəaliyyət:* Kursantlar tapşırığı yerinə yetirir, həm fərdi, həm də qrup şəklində.
- *Qiymətləndirmə:* Tapşırığın nəticəsi müəllim və ya komandadakı həmyaşıdlar tərəfindən qiymətləndirilir.
- *Refleksiya və geribildirim:* Kursantlar öz performansını qiymətləndirir, hansı strategiyanın effektiv olduğunu analiz edir və gələcək tapşırıqlar üçün planlama aparır.




**Diaqram 1.** *Tapşırıq əsaslı kommunikativ hərbi dil öyrənmə strategiyasının modeli*

Bu diaqram kursantların özünüidarəetmə, əməkdaşlıq və hərbi kontekstdə ünsiyyət bacarıqlarını göstərir. Model həm tədris planının strukturunu, həm də tapşırıq əsaslı öyrənmənin praktik mərhələlərini əks etdirir.

Beləliklə, tapşırıq əsaslı kommunikativ dil öyrənmə strategiyası kursantların yalnız dil biliklərini artırmır, həm də strateji düşünmə və peşə yönümlü kommunikasiya bacarıqlarını inkişaf etdirir, bu da hərbi təhsil üçün böyük əhəmiyyət kəsb edir [JohnPeter & Hashim, 2023, s.3-4].

Hərbi təhsil müəssisələrində ingilis dili öyrənmənin əsas məqsədi kursantların real hərbi situasiyalarda effektiv ünsiyyət bacarıqlarını inkişaf etdirməkdir. Bu məqsəd üçün tapşırıq əsaslı kommunikativ hərbi dil öyrənmə strategiyası ən müasir və effektiv yanaşma hesab olunur. Strategiyanın mərkəzində kursantların praktiki tapşırıqlar vasitəsilə dil bacarıqlarını

 

inkişaf etdirməsi durur . Tapşırıq əsaslı öyrənmə hərbi kontekstdə, məsələn, patrul hesabatlarının hazırlanması, əməliyyat planlarının təqdimatı və komandada ünsiyyət, kimi fəaliyyətlərdə dilin məqsədli istifadəsini təmin edir. Bu strategiya kursantları mərhələli fəaliyyət modelinə uyğun öyrədir. İlk mərhələ tapşırığın təqdimatıdır: müəllim və ya komandir kursantlara real hərbi situasiyaya uyğun senari təqdim edir. İkinci mərhələdə kursantlar tapşırığın yerinə yetirilməsi üçün plan hazırlayır, hansı kommunikativ addımların atılacağını və hansı bacarıqların tətbiq olunacağınımüəyyənləşdirir. Üçüncü mərhələdə kursantlar tapşırığı praktik icra edirlər: patrul hesabatını ingilis dilində hazırlayır, əməliyyat planını təqdim edir və komandada dialoq qururlar .Dördüncü mərhələ qiymətləndirmədir. Kursantların icrası müəllim və həmyaşıdlar tərəfindən qiymətləndirilir. Bu mərhələ yalnız nəticəni yox, həm də tapşırığın yerinə yetirilməsi prosesini əhatə edir. Son mərhələ isə refleksiya və geribildirimdir: kursantlar öz performanslarını analiz edir, hansı addımların daha effektiv olduğunu müəyyənləşdirir və gələcək tapşırıqlar üçün strategiyalarını tənzimləyirlər.

Tapşırıq əsaslı kommunikativ dil öyrənmə strategiyasının hərbi dil təlimində bir sıra praktik üstünlükləri vardır:

- Kursantlar real hərbi tapşırıqlarda dil bacarıqlarını tətbiq edərək praktik səriştə qazanır.
- Strategiyanın kommunikativ yanaşması kursantları aktiv öyrənməyə və komanda işinə yönəldir.
- Refleksiya və geribildirim mərhələsi kursantların özünüidarəetmə və kritik düşünmə bacarıqlarını inkişaf etdirir.
- Tapşırıqların müxtəlifliyi və realistikliyi motivasiyanı artırır və dil öyrənmənin məqsədyönümlü olmasını təmin edir [Shurovi et al., 2025, s.266-269].

Beləliklə, TBC-MLLS yalnız dil biliklərini artırmır, həm də kursantların strateji kommunikasiya, komandada işləmə və peşə yönümlü bacarıqlarını formalaşdırır. Son araşdırmalar göstərir ki, bu strategiyanın tətbiqi kursantların dil performansını əhəmiyyətli dərəcədə yüksəldir və onları hərbi əməliyyatlarda effektiv kommunikasiya üçün hazırlayır .

**4.Tapşırıq əsaslı kommunikativ hərbi dil öyrənmə strategiyasının hərbi əməliyyatlarda tətbiqi**

Hərbi təhsil müəssisələrində ingilis dili öyrənmənin effektivliyi birbaşa kursantların praktik əməliyyat bacarıqları ilə əlaqədardır. Bu baxımdan, tapşırıq əsaslı kommunikativ hərbi dil öyrənmə strategiyası kursantları yalnız dil bilikləri ilə təmin etmir, eyni zamanda onları real əməliyyat situasiyalarında ünsiyyət qurmaq və qərar vermək bacarığına hazırlayır. Strategiyanın əsas prinsipi ondan ibarətdir ki, kursantlar hərbi tapşırıqlar əsasında kommunikativ fəaliyyətlə məşğul olur və bu yolla dil bacarıqlarını praktik olaraq inkişaf etdirirlər [Alolaywi, 2025, s.869-871]. Strategiyanın mühüm komponenti refleksiya və geribildirim mərhələsidir. Bu mərhələdə kursantlar öz fəaliyyətini qiymətləndirir, hansı kommunikativ yanaşmaların effektiv olduğunu müəyyənləşdirir və növbəti tapşırıqlar üçün strategiyalarını təkmilləşdirirlər. Bu proses yalnız dil biliklərini deyil, həm də strateji düşünmə və əməliyyat yönümlü qərarvermə bacarıqlarını inkişaf etdirir. Beləliklə, tapşırıq əsaslı kommunikativ dil öyrənmə strategiyası kursantlara hərbi situasiyada sürətli, dəqiq və məqsəd yönümlü kommunikasiya aparmaq imkanı verir.

Strategiyanın tətbiqi həmçinin motivasiya və özünüidarəetmə komponentlərini gücləndirir. Kursantlar hərbi tapşırığı yerinə yetirərkən yalnız dil biliklərini istifadə etmir, həm də tapşırığın uğuruna görə məsuliyyət daşıyır. Bu isə onların hərbi əməliyyatlarda özünü idarəetmə və peşə yönümlü məsuliyyət hissini formalaşdırır.

## 5.Tapşırıq əsaslı kommunikativ hərbi dil öyrənmə strategiyasının texnoloji dəstəyi

Müasir hərbi təhsil müəssisələrində tapşırıq əsaslı kommunikativ hərbi dil öyrənmə strategiyasının (TBC-MLLS) səmərəliliyini artırmaq üçün texnoloji vasitələr geniş tətbiq olunur. Kursantlar həm real, həm də simulyasiya edilmiş hərbi tapşırıqlarda dil bacarıqlarını praktik olaraq inkişaf etdirirlər. Texnoloji dəstək strategiyanın tədris və qiymətləndirmə mərhələlərini optimallaşdırır və kursantların performansını izləməyi asanlaşdırır.

Tapşırıq əsaslı kommunikativ dil öyrənmə strategiyası texnologiyadan aşağıdakı məqsədlərlə istifadə edir:

- Simulyasiya platformaları: Hərbi əməliyyat mühitini simulyasiya edən proqramlar kursantlara tapşırıq əsasında ünsiyyət qurmaq imkanı verir. Məsələn, patrul tapşırıqları və əməliyyat planlarının təqdimatı interaktiv proqramlar vasitəsilə həyata keçirilir.
- Onlayn geribildirim sistemləri: Kursantlar tapşırıq icrasını rəqəmsal platforma üzərindən təqdim edir və dərhal müəllim və həmyaşıd geribildirimi alırlar. Bu, refleksiya və strategiyaların təkmilləşdirilməsini sürətləndirir.
- Video və audio qeydiyyat: Kursantların danışıq və təqdimat bacarıqları qeyd olunur və sonradan analiz edilir. Bu, kommunikativ performansın obyektiv qiymətləndirilməsini təmin edir.

Strategiyanın texnoloji dəstəyi kursantların özünüidarəetmə və metakognitiv bacarıqlarını gücləndirir. Kursantlar tapşırığı icra etdikdən sonra video və audio materialları izləyərək səhvlərini müəyyənləşdirir, dil istifadəsini təkmilləşdirir və gələcək tapşırıqlar üçün strategiyalarını optimallaşdırır. Bu proses həmçinin hərbi təlimdə motivasiya və iştirak səviyyəsini artırır TBC-MLLS texnoloji dəstək modeli aşağıdakı mərhələlərdən ibarətdir:

- Tapşırığın təqdimatı və simulyasiya: Kursant real hərbi tapşırıqla tanış olur və texnoloji mühitdə sınaq icra edir.
- Planlama və hazırlıq: Kursant tapşırığı yerinə yetirmək üçün strategiya planı hazırlayır və texnoloji vasitələrdən istifadə edir.
- Fəaliyyət və qeydiyyat: Tapşırıq icra olunur, audio və video vasitəsilə qeydə alınır.
- Geribildirim və refleksiya: Kursantlar rəqəmsal platformada qiymətləndirmə alır və öz fəaliyyətlərini təhlil edir.
- Strategiyanın təkmilləşdirilməsi: Gələcək tapşırıqlar üçün texnoloji dəstək əsasında plan və strategiya optimallaşdırılır.




**Diaqram 2.** *Tapşırıq əsaslı kommunikativ dil öyrənmə strategiyasına texnoloji dəstək modeli*

Diaqram kursantların texnoloji dəstəklə hərbi tapşırıqları necə icra etdiyini, qiymətləndirmə və refleksiya mərhələlərinin prosesə inteqrasiyasını göstərir. Bu yanaşma kursantların praktik bacarıqlarını sistemli şəkildə inkişaf etdirməyə və strateji qərarvermə qabiliyyətlərini artırmağa imkan verir.

Nəticə etibarilə, TBC-MLLS-nin texnoloji dəstəyi kursantların hərbi əməliyyatlarda dil bacarıqlarını praktik olaraq tətbiq etməsini təmin edir və təlim proqramlarının effektivliyini yüksəldir. Strategiyanın texnoloji inteqrasiyası həm də kursantların müasir hərbi təlim mühitinə uyğunlaşmasını və real tapşırıqlarda daha yüksək performans göstərməsini təmin edir.

Tapşırıq əsaslı kommunikativ dil öyrənmə strategiyasının strateji nəticələri aşağıdakı sahələrdə müşahidə olunur:

- Peşəyönümlü kommunikativ bacarıqların inkişafı: Kursantlar real həyatdan götürülmüş tapşırıqlar əsasında dil istifadə etməyi öyrənir və bu, onların hərbi əməliyyatlarda ünsiyyət performansını artırır.
- Müstəqil qərarvermə: Tapşırıqlar kursantlara müstəqil proseslərdə dil vasitəsilə fikir bildirmə və qərar qəbul etmə bacarığını formalaşdırır.
- Komanda koordinasiyası: Komanda ilə tapşırıq yerinə yetirərkən kursantlar qarşılıqlı ünsiyyət, cavabdehlik və koordinasiya bacarıqlarını gücləndirir.
- Peşə yönümlü düşüncə: Tapşırıq əsasında öyrənmə kursantların hərbi rol və funksiyalarını daha dərindən anlamasına kömək edir.

**6.Təkliflər**

*Təlim Proqramlarının Strukturlaşdırılması:* Tapşırıq əsaslı modul və srukturlaşdırılmış təlim proqramları yaradılmalıdır ki, bu proqramlar real əməliyyat şəraitinə uyğun tapşırıqlar əsasında dil bacarıqlarını inkişaf etdirsin.

*Mentorluq və Geribildirim:* Kursantların tapşırıq icrası zamanı əldə etdiyi nəticələr daha dərindən analiz olunmalı və refleksiya prosesinə daxil edilməlidir.

*Qrup İşlərinin Genişləndirilməsi:* Tapşırıqlar daha çox komanda şəklində yerinə yetirilməli və bu prosesdə kommunikativ strategiyaların əməli tətbiqi nəzərdə tutulmalıdır.

*Təlim Materiallarının Autentikliyi:* Tapşırıqlar real hərbi situasiyalara uyğunlaşdırılmalı və autentik dil materialları ilə zənginləşdirilməlidir.

Bütün bunlar göstərir ki, tapşırıq əsaslı kommunikativ dil öyrənmə strategiyası yalnız dil bacarıqları deyil, həm də kursantların fəaliyyət yönümlü strateji səriştələrini gücləndirir və nəticədə onları real hərbi əməliyyatlarda daha hazırlıqlı edir [Zhytska, 2014, p.13–20].

**7.Tapşırıq əsaslı kommunikativ hərbi dil öyrənmə strategiyasının strateji nəticələri**

Tədqiqatlar tapşırıq əsaslı öyrənmənin kursantların müstəqil öyrənmə və problemlərin həlli bacarıqlarını da gücləndirdiyini göstərir. Kursantlar konkret bir tapşırığı yerinə yetirərkən təkcə dil formalarını deyil, həm də dilin funksional rolunu anlamağa çalışırlar ki, bu da onların dilə daha çox mənalı şəkildə yanaşmasını təmin edir. Hərbi kontekstdə bu xüsusiyyət, kursantların komanda daxilində mürəkkəb təlimatları qəbul etməsi, tapşırıqları müvafiq şəkildə bölüşdürməsi və icra etməsi kimi strategik öhdəlikləri daha da effektiv yerinə yetirməyinə kömək edir.

Tapşırıq əsaslı kommunikativ hərbi dil öyrənmə strategiyası (TBCMLLS) yalnız kursantların dil biliklərini artırmaqla kifayətlənmir, eyni zamanda onların real hərbi situasiyalarda dil istifadəsi üçün kompetensiyalarını formalaşdırır. Ümumiyyəylə, tapşırıq əsaslı öyrənmə modeli kursantların yalnız dil bacarıqlarını deyil, həm də peşə yönümlü ünsiyyət səriştəsini inkişaf etdirdiyindən, tapşırıqlar real həyat şəraitində kursantlara qarşılıqlı əlaqədə olmağı və kommunikasiya məqsədinə nail olmağı öyrədir. Belə tapşırıqlar sayəsində kursantlar danışıq, hesabat hazırlama və komandada qarşılıqlı fəaliyyət bacarıqlarını tətbiq edirlər ki, bu da onların gələcək hərbi əməliyyatlarda daha səmərəli

fəaliyyət göstərməsinə imkan verir. Nəticə etibarilə, TBC-MLLS hərbi təlim proqramlarının ayrılmaz hissəsinə çevrilmişdir. Strategiyanın tətbiqi kursantların dil bacarıqlarını praktik səriştəyə çevirir, onları real əməliyyatlarda ünsiyyət qurmağa hazırlayır və hərbi təhsil üçün vacib olan strateji və taktiki bacarıqların inkişafına şərait yaradır. Beləliklə, TBCMLLS yalnız dil öyrənmə vasitəsi deyil, həm də hərbi əməliyyatların uğurlu icrasına hazırlıq strategiyasıdır.

## 8.REFERENCES

1. Shurovi, M., Yahaya, M. F., Hajimia, H., & Hasan, M. K. (2025). A systematic literature review of ESL/EFL learning strategies and learner motivation. *International Journal of Learning, Teaching and Educational Research, 24*(1), 252–277. https://doi.org/10.26803/ijlter.24.1.13 (in English)
2. Alolaywi, Y. (2025). The role of metacognitive strategies in enhancing EFL learners' academic success. *Forum for Linguistic Studies, 7*(9), 865–878. https://doi.org/10.30564/fls.v7i9.10777 (in English)
3. JohnPeter, A. A., & Hashim, H. (2023). Language learning strategies used by ESL/EFL learners: A systematic review (2019–2023). *International Journal of Academic Research in Business and Social Sciences, 13*(12), 2545–2565. http://doi.org/10.6007/IJARBSS/v13-i12/20148 (in English)
4. Zhytska, S. (2014). Training military institutions cadets for professional-communicative activities with the help of task-based learning. *Advanced Education*, (1), 13–20. https://doi.org/10.20535/2410-8286.29147 (in English)

## ƏDƏBİYYAT

1. Shurovi, M., Yahaya, M. F., Hajimia, H. & Hasan, M. K. (2025). A systematic literature review of ESL/EFL learning strategies and learner motivation. *International Journal of Learning, Teaching and Educational Research, 24*(1), 252–277. https://doi.org/10.26803/ijlter.24.1.13
2. Alolaywi, Y. (2025). The role of metacognitive strategies in enhancing EFL learners' academic success. *Forum for Linguistic Studies, 7*(9), 865–878. https://doi.org/10.30564/fls.v7i9.10777
3. JohnPeter, A. A. & Hashim, H. (2023). Language learning strategies used by ESL/EFL learners: A systematic review (2019–2023). *International Journal of Academic Research in Business and Social Sciences, 13*(12), 2545–2565. http://doi.org/10.6007/IJARBSS/v13-i12/20148
4. Zhytska, S. (2014). Training military institutions cadets for professional-communicative activities with the help of task-based learning. *Advanced Education*, (1), 13–20. https://doi.org/10.20535/2410-8286.29147